Bu günlər tarixi bir hadisəyə şahidlik edirik. Doğma ali təhsil ocağımız olan Azərbaycan İqtisad Universitetinin yaradılmasından 100 il ötür. Bu ali təhsil müəssisəsi çox şərəfli bir tarixi yol keçmiş, uzun illər ölkəmizin iqtisadiyyatını müxtəlif profilli kadrlarla təmin etmişdir. Hazırda Universitetin yüz minlərlə məzunu iqtisadiyyatımızın və dövlətimizin idarə olunmasında fəal çalışaraq ölkəmizin inkişafına töhvələr verirlər. Mən bu ali təhsil ocağının məzunu olmaqdan həmişə qürur hissi duymuşam. Əldə etdiyim uğurlara görə bu doğma təhsil müəssisəsinə, müəllimlərimə minnətdaram və təhsil illərimi həmişə ömrümün ən gözəl anları olaraq xatırlayıram.

Tələbə olmaq gözəl hissdir. Tələbəlik insan ömrünün əvəzedilməz, yaddaşlardan silinməz dövrüdür. Bu gün Universitetdə təhsil alan tələbə, gələcəkdə hər hansı bir sahədə çalışacaq və ölkəmizin tərəqqisinə tövhələr verəcək bir iqtisadçı, ən başlıcası isə dövlətinə və xalqına xidmət edəcək bir vətəndaşdır. Dövlətimizin möhkəm inkişaf təməli sizin, bizim, ümumilikdə hamımızın sabaha olan ümidlərimizi daha da gücləndirir, gələcəyə inamımızı artırır. Mən özümü bu gün də sizlərlə bir cərgədə hiss edirəm. Bizləri birləşdirən milli-mənəvi dəyərlərimizə, xüsusilə tarixi keçmişimizə olan sevgimiz, xoşbəxt gələcəyimizə olan inamımızdır.

Təbii ki, bizim təhsil aldığımız dövrlə müqayisədə Universitetimizin maddi-texniki bazası möhkəmləndirilmiş, fakültələrin sayı artırılmış, labaratoriyalar fəaliyyətə başlamış, yüksək təhsil şəraiti yaradılmışdır. Təkcə onu qeyd etmək yerinə düşər ki, hazırda bu qocaman təhsil müəssisəsində iyirmi minə yaxın tələbə elmin sirlərinə yiyələnir. Bu gün Azərbaycan dövlətinin bir məqsədi var: yüksək texnologiyalar cəmiyyətini formalaşdırmaq və elm sahələrini daha da inkişaf etdirmək. Bizim doğma Universitetimiz də bu strateji sahəyə öz tövhələrini uzun illər boyu vermiş və bu gün də bu sahədə öncül təhsil müəssisələrindən biridir.

Uğurlara gedən yol daim axtarışlarda olmaq, çalışmaq və inkişaf etməkdir. Ümummilli Lider Heydər Əliyev bütün təhsillə bağlı çıxışlarında "Təhsil millətin gələcəyidir" deyirdi. Həmin gələcək sizlərin-professor-müəllim heyətinin, siz tələbələrindir. Bu yolda bir məzun olaraq mənə də uğurlar diləmək düşər.

100 il böyük Zaman anlamında bir zərrədir, zərrədən də kiçikdir. Amma onun ictimai-siyasi, elm-təhsil mühitinə verdiyi töhfədən danışırıqsa, bu tarix kifayət qədər zəngin və əhəmiyyətli bir dövrdür. Dövlət İqtisad Universiteti Azərbaycanın hərtərəfli inkişafına böyük töhfələr vermişdir. Ali təhsilli iqtisadçı kadrları hazırlanmaqla Azərbaycan iqtisadiyyatının gücləndirilməsində universitetin xidmətləri danılmazdır. Bu gün də həmin kadr potensialı ölkəmizin, müstəqil dövlətimizin uğurlu inkişafını təmin edir və Azərbaycanımızı dünyanın müxtəlif ölkələrində ləyaqətlə təmsil edirlər.

XX əsrin əvvəlindən bu günə kimi Azərbaycan elminə çıraq tutan universitetimizin yaradılması xalqımızın tarixində ən əlamətdar hadisələrdən biridir. Azərbaycanda öndə gedən tədris müəssisəsi olan, zəngin tarixi keçmişə malik universitet hər zaman Azərbaycanda mütərəqqi fikrin, milli düşüncənin mərkəzi olmuşdur. Burada Azərbaycanın yüzlərlə tanınmış alimləri, ziyalıları, iqtisadçıları təhsil almışlar.

Azərbaycan Dövlət İqtisad Universitetinin kollektivi möhtərəm cənab Prezidentimiz İlham Əliyev tərəfindən göstərilən yüksək diqqət və qayğının nəticəsində, təhsildə və elmdə yaradıcılıq uğurlarını zənginləşdirmək, dünya təhsilinə və elminə inteqrasiyanı sürətləndirmək üçün gərgin səylərini davam etdirir.

Azərbaycan Dövlət İqtisad Universitetinin dəyərli kollektivini bir daha təbrik edir və gələcək işlərində yeni-yeni uğurlar arzulayıram.

***Hörmətlə,***

***Kamal Həsənov***
***Cəbrayıl Rayon İcra Hakimiyyətinin Başçısı***